**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№384/4** **23 dekabr 2025-ci il**

**“Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik”lərin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 14 mart tarixli 354/3 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”a uyğun olaraq və Palatanın 2025-ci il üzrə iş planının 4.3-cü “2026-cı ildə auditin keyfiyyətinə kənar nəzarətin aparılmasına dair plan-qrafikin hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə (E.Əliyev) tərəfindən təqdim edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2026-cı il üçün 1 və 2 nömrəli Plan-qrafik”lərin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Şurada müzakirə zamanı edilən irad və təkliflər, habelə rəyçilər tərəfindən təqdim olunmuş rəylər nəzərə alınmaqla “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2026-cı il üçün 1 və 2 nömrəli Plan-qrafiklər” təsdiq edilsin (əlavə olunur).

2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (E.Əliyev) tapşırılsın ki, 2026-cı il üçün nəzərdə tutulmuş auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin müvafiq Qaydaya uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.

3. Bu qərarın və “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2026-cı il üçün 1 və 2 nömrəli Plan-qrafiklər”in mətnləri Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** *Əsli ilə düzdür* **Vahid Novruzov**

Azərbaycan Respublikası Auditorlar Palatası · Chamber of Auditors of Azerbaijan Republic · Ümumi şöbə